

**Hər bir işin uğurlu sonluğu başlanğıcda bununla bağlı atılacaq addımları, həyata keçiriləcək tədbirləri dəqiqliklə təhlil və müəyyən etməkdən, bu istiqamətdə qabaqcıl təcrübədən, rəhbər qurumların müvafiq tövsiyələrindən maksimum dərəcədə yararlanmaqdan çox asılıdır. Bu baxımdan, "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının icrası xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, təbliği, estetik zövqün və dünya görüşünün formalaşması, realist ənənələrin davam və inkişaf etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi yolunda mütərəqqi ideyalar tribunasına çevrilən teatr sənətimizin tərəqqisinə öz əvəzsiz töhfəsini verməkdədir...**

# Fərəh doğuran amillər

## "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının icrası haqqında

**Gerçəkləşdirilən layihələri qısa şəkildə bu cür qruplaşdırmaq olar: Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 18 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramına uyğun olaraq islahatların ilkin mərhələsinə başlanılmışdır. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının rus bölməsi Azərbaycan Dövlət Rus Dram Teatrına birləşdirilmişdir.**

Məlumdur ki, əvvəllər Bakı şəhərində eyni profilli üç teatr - Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Dövlət Gənclər Teatrı və Kamera Teatrı fəaliyyət göstərirdi. Bunlardan ikisinin ciddi bina problemi var idi. Hər üç teatrı bir araya gətirmək və dolğun repertuarlı, müasir düşüncəli yeni teatr kollektivinin yaradılması teatr sənətimizin yeni dövrdəki inkişafı üçün zəruridir. Məhz elə buna görə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 mart 2009-cu il tarixli, 41 nömrəli qərarına uyğun olaraq Dövlət Gənclər Teatrı, 6 noyabr 2009-cu il tarixli, 476 nömrəli qərarı ilə isə Bakı Kamera Teatrı Gənc Tamaşaçılar Teatrına birləşdirilmişdir. Respublikanın xalq artisti, Prezident təqaüdçüsü, "Şöhrət" ordenli Cənnət Səlimova teatra baş rejissor vəzifəsinə təyin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 sentyabr 2008-ci il tarixli, 222 nömrəli Qərarına əsasən Gəncə Poeziya Teatrı Gəncə Dram Teatrına birləşdirilmişdir. Marionet Teatrı Mədəniyyət və Turizm Nazirliyinin tabeliyinə verilmişdir.

Dövlət Proqramının 2.1. bəndinə uyğun olaraq sistemli islahatların aparılması, yeni dövrün tələblərinə uyğun olan menecment (idarəçilik) və marketinq (bazarlama) təcrübəsinin teatr prosesinə daxil olunması, prodüserlik institutunun formalaşması, regionlarda yeni bələdiyyə teatrlarının yaradılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Teatr fəaliyyətinin normativ hüquqi bazasının möhkəmləndirilməsi ilə bağlı respublikada fəaliyyət göstərən dövlət teatrlarının yeni nizamnamələri hazırlanır.



Respublika ərazisində fəaliyyət göstərən dövlət teatrlarının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı, Azərbaycan Dövlət Kukla Teatrı, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı müasir standartlara cavab verən səs və işıq avadanlıqları ilə təchiz olunmuşlar. Teatrların yaradıcılıq arxivlərinin müasir tələblərə uyğunlaşdırılması və gündəlik videoçəkilişin təmin olunması məqsədilə təmirdən çıxmış teatrlarda "Realtimes" sistemi (video və səs avadanlığı) quraşdırılmışdır. Azərbaycanda turizmin inkişafını və ölkəmizə gələn xarici vətəndaşların sayının ildən-ilə artmasını və əhalinin müəyyən bir qisminin eşitmə qabiliyyətini itirmiş əlil insanlar olduğunu nəzərə alaraq, təmirdən çıxmış teatr müəssisələrində hərəkət edən tərcümə sətirlərini təmin edən avadanlığın quraşdırılması istiqamətində işlər görülür.

Dövlət Pantomima Teatrı üçün səs və işıq avadanlığı, ofis mebeli, oturacaqlar, kompüter dəsti alınmış, səhnə pərdələri sifariş olunmuş, Qax, Salyan kukla teatrları, Ağdam Dövlət Dram Teatrı üçün kompüter dəstləri alınmışdır.

Bakı şəhərində, Naxçıvan Muxtar Respublikasında və digər regionlarda, həmçinin qaçqın və məcburi köçkünlük şəraitində fəaliyyət göstərən dövlət teatrlarının yerləşdiyi binalarda təmir-bərpa və yenidənqurma işlərinin aparılması üçün zəruri tədbirlərin görülməsi məqsədilə Azərbaycan Dövlət Kukla Teatrının, Azərbaycan Dövlət Rus Dram Teatrının, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının binalarında təmir-bərpa və yenidənqurma işləri aparılmışdır. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı əsaslı təmir və yenidənqurma işlərindən sonra yaxın günlərdə istismara veriləcəkdir. "Yuğ" Dövlət Teatrının binasında təmir işləri aparılmışdır.

Gəncə Dövlət Dram Teatrında istilik sistemi qurulmuşdur. Mingəçevir Dövlət Dram Teatrındakı təmir işləri yekunlaşmaq üzrədir. Dövlət Pantomima Teatrının yerləşdiyi "Şəfəq" kinoteatrının fasad hissəsinin, foyesinin və inzibati otaqların təmirinə başlanılmışdır. Ağdam Dövlət Dram Teatrında təmir-bərpa işlərinə başlanılmışdır.

İrəvan Dövlət Azərbaycan Dram Teatrının binasında təmir-bərpa işlərinin aparılması məqsədilə layihə-smeta sənədləri hazırlanmışdır. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında təmir-bərpa və yenidənqurma işlərinin aparılması ilə bağlı layihə-smeta sənədlərinin hazırlanmasına başlanılmışdır.

Yüksək səviyyəli nəşr və reklam məmulatlarının, dekor və geyimlərin hazırlanması işinin təşkilinin təkmilləşdirilməsi məqsədilə teatr mütəxəssisləri "Pro-Teatr" yarmarkasında (Moskva) iştirak etmişlər.

Teatr-treninq mərkəzinin yaradılması ilə bağlı təkliflər paketi hazırlanır.

Azərbaycan Dövlət Opera və Balet Teatrının və Azərbaycan Dövlət Musiqili Komediya Teatrının simfonik orkestrləri üçün musiqi alətlərini (klarnet, qoboy, truba, ingilis rojoku, faqot, fleyta və s.) alınmışdır.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Kukla Teatrı üçün Hyundai "Sonata" markalı minik maşınları, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına, Azərbaycan Dövlət Kukla Teatrına, Şuşa Dövlət Musiqili Dram Teatrına, Şəki Dövlət Dram Teatrına, Gəncə və Lənkəran Dövlət Dram teatrlarına Qazel "Qaz-322131-95" markalı mikroavtobuslar verilmişdir.

Azərbaycan Dövlət Rus Dram Teatrının, Azərbaycan Dövlət Kukla Teatrının, Naxçıvan Dövlət Musiqili Dram Teatrının, Gəncə Dövlət Dram Teatrının, Lənkəran Dövlət Dram Teatrının, Şəki Dövlət Dram Teatrının nəzdində dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər hesabına studiyalar yaradılmışdır.

Teatr sahəsində təhsilin təkmilləşdirilməsi məqsə-





dilə teatrlara respublikamızın və MDB dövlətlərinin tanınmış teatr pedaqoqları dəvət edilmişdir.

Müvafiq proqram, saziş və müqavilələr çərçivəsində gənc rejissorlar İradə Gözəlova Rusiya Federasiyasının A.P.Çexov adına Moskva Akademik Bədaye Teatrının nəzdində V.Meyerxold adına Teatr Mədəniyyəti Mərkəzi ilə birgə təşkil etdiyi Teatr rejissorları kurslarının ikiillik magistraturasına qəbul olunmuş, Günay Səttarova Ankara Dövlət Teatrında 9 ay müddətində, Mikayıl Mikayılov Praqa Milli Teatrında 3 ay müddətində, Tural Mustafayev Krakov Milli Teatrında 6 ay müddətində təcrübə keçmişlər.

Azərbaycan teatr sənəti antologiyasının hazırlanması və nəşr etdirilməsi ilə bağlı mütəxəssis rəyləri toplanılmış, redaksiya heyəti müəyyən edilmişdir.

2009-cu ilin iyun ayında Gəncə şəhərində "Yeni Teatr" respublika festivalı keçirilmişdir.

Ötən il ərzində "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı" (İ.Rəhimli), "Leyli və Məcnun"100 il səhnədə " (M.Çəmənli), "Mehdi Məmmədov və ya sənətdə konseptual Hamletimiz"(A.Talıbzadə), "Dördüncü ölçünün rəngləri" (M.Əlizadə), "Folklorumuzun ilk doktoru" (A.Dadaşov) kitabları nəşr edilmişdir. Bu il "Azərbaycan Dövlət Musiqili Komediya Teatrı-100" kitabı, "Akademik Milli Dram Teatrın unudulmaz sənətkarları" foto-albomu nəşr ediləcək, "Bakı-teatrlar şəhəri" multimedia layihəsi həyata keçiriləcəkdir.

2010-cu il 8-9 noyabr tarixlərində Bakı şəhərində "Dünya teatr prosesi XXI əsrdə: problemlər, perspektivlər və alternativlər" mövzusunda konfransın keçirilməsi ilə bağlı təşkilati məsələlərin həllinə başlanılmışdır.

2011-ci ildə UNİMA-nın (Beynəlxalq Kukla Teatrları Assosiasiyası) iştirakı ilə kukla teatrı həftəsinin, 2012-ci ildə isə YUNESKO-nun Beynəlxalq Teatr İnstitutunun növbəti konqresinin Bakı şəhərində keçirilməsi ilə bağlı təkliflər paketi hazırlanır.

2010-cu ilin payızında Bakı şəhərində "A.P.Çexov festivalının ipək yolu" adlı bir mərhələsi keçiriləcəkdir. Təşkilati işlərin icrasına başlanılmışdır.

2009-2010-cu illər ərzində respublika teatrlarında dövlət sifarişi yolu ilə 36 tamaşa hazırlanmışdır. Dövlət sifarişi ilə tamaşa hazırlamaq üçün MDB dövlətlərindən, Avropadan rejissor, baletmeyster və teatr rəssamları - Nataliya Başeva (Belorusiya), Kamran Şahmərdan (Finlandiya), Tatyana Melnikova (Rusiya), Tatyana Tarakanova (Rusiya), Valeri Belyakoviç (Rusiya), İskander Sakayev (Rusiya) dəvət olunmuşlar.

Sankt-Peterburq Teatr Akademiyasının aktyor sənəti kafedrasının müdiri, Rusiyanın əməkdar incəsənət xadimi, K.Stanislavski adına Beynəlxalq mükafat laureatı, professor Benyamin Filştinski, baletmeyster, Rusiyanın əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Sergey Qrisay, "Kultura" telekanalının rejissoru Mixail Falkinin iştirakı ilə ustad-dərslər keçirilmişdir. Sankt-Peterburq şəhərinin "Zazerkalye" teatrının işıq üzrə rəssamı, Rusiyanın əməkdar mədəniyyət işçisi Svetlana Nikolayenkonun iştirakı ilə teatrların texniki heyəti üçün məşğələlər təşkil edilmişdir.

Beynəlxalq layihə əsasında hazırlanmış "Koroğlu" operasının Bakıda premyerası keçirilmiş, "Dream Fabrik" Kukla Teatrı (Estoniya), Nevski Teatr Mərkəzi, TT Qrup, "Ne bolşoy teatr" Prodüser Mərkəzi, Oksford Pleyhaus Azərbaycanda qastrol səfərlərində olmuşlar...

Yuxarıda qeyd etdiyimiz kimi bütün bunlar həyata keçirilən tədbirlərin bir qismidir. Proqramın icrası ilə bağlı hələ çox işlər görülməlidir.

**Şübhə yoxdur ki, Azərbaycan teatr sənətinin yaxın 10 il ərzində inkişaf perspektivlərini müəyyənləşdirən bu Dövlət Proqramı öz fəaliyyəti ilə milli-mədəni sərvətə çevrilmiş Azərbaycan teatrının zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunmasına, ümumbəşəri və milli dəyərlərin təbliğinə, dünya mədəniyyətinə inteqrasiyasına, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsinə və repertuarın günün tələblərinə uyğun formalaşması məqsədlərinə xidmət edəcəkdir...**

**Y.HİDAYƏTOĞLU**